

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 245 (21.906)

*26 dekabr 2017-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, iqtisadi əməkdaşlığımızın daha da genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması ilə bağlı əlavə tədbirlərin görülməsinin vacibliyini qeyd edib, Rusiyaya Azərbaycan ixracatının artmasından məmnunluğunu bildirib.

Görüşdə Şimal-Cənub nəqliyyat dəhlizinin hər iki ölkə üçün əhəmiyyəti vurğulanıb, ölkələrimizin ticarət əlaqələrində dinamik artımın olduğu qeyd edilib, qarşılıqlı investisiya, turizm, tranzit daşımaları sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.

* * *

Prezident İlham Əliyev dekabrın 25-də Xalq artisti, görkəmli pianoçu Fərhad Bədəlbəyliyə "İstiqlal" ordenini təqdim edib.



## Muxtar respublikada quruculuq işləri davam etdirilir







***Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə bağlı təsdiq olunmuş Tədbirlər Planına əsasən məqsədyönlü işlər görülür.***

Dünyaşöhrətli alimin qiymətli elmi irsinin öyrənilməsi, təbliği istiqamətində həyata keçirilən tədbirlər xalqımızın bu böyük elm xadiminə ehtiramının ifadəsi kimi diqqəti çəkir. Bu gün muxtar respublikada Əziz Əliyevin adını daşıyan ünvanlarda yenidənqurma işləri aparılır, onlar daha müasir səviyyəyə gətirilir. Belə ki, Naxçıvan şəhərinin Əziz Əliyev prospektində geniş yenidənqurma işləri aparılıb, yol yatağı genişləndirilib, prospekt boyu yerləşən həyət evləri üçün müasir tələblərə cavab verən divarlar çəkilib. Bu işdə milli arxitektura ornamentlərindən istifadə edilib. Həmin ərazidə yeni istehsal və xidmət sahələri yaradılıb.

Bu sahədə görülən işlərin davamı olaraq alimin adını daşıyan Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının binası da əsaslı yenidən qurulur. Həmin ünvanda da avtomobil yolu genişləndirilir, divarlar çəkilir və səkilər salınır.

* * *

Naxçıvan şəhərində inzibati binaların tikintisi də davam etdirilir. Belə ki, "Azərbaycan" küçəsində Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkəti üçün ayrılmış binada əsaslı təmir işləri aparılır. Xətai məhəlləsində isə "Araz" Elm-İstehsalat Birliyi, Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsi üçün yeni bina tikilir. Yeni quruculuq ünvanlarında əməkdaşlara lazımi iş şəraiti yaradılacaq, binaların yerləşdikləri ərazidə abadlıq işləri aparılacaq.

* * *

Şahbuz rayonu muxtar respublikanın ilbəilbər çoxsaylı quruculuq tədbirləri ilə abadlaşan yurd yerlərindəndir. Rayon mərkəzindəki Heydər Əliyev prospekti isə son illər quruculuq işləri nəticəsində genişlənən və simasını tamamilə dəyişən bir ünvana çevrilib. Burada "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən inşa olunan Şahbuz Rayon Mədəniyyət Evi üçün bina yaxın gələcəkdə prospekta yeni bir rəng qatacaqdır.

Görülən işlər barədə iş icraçısı Kənan Hüseynovla söhbətimiz zamanı bildirdi ki, bina ümumi sahəsi bir hektaradək olan ərazinin 904 kvadratmetr sahəsində tikilir. Hazırda birinci mərtəbənin dəmir-qəlib işləri görülür. Qış fəsli olmasına baxmayaraq, havaların mülayim keçməsi digər işlərlə yanaşı, ərazidə torpağın hamarlanmasının həyata keçirilməsinə də imkan verir. Son illər yeni tikililərin hər birində olduğu kimi, burada da yerli materiallardan istifadəyə üstünlük verilir.



Qeyd edək ki, 2 mərtəbədən ibarət olacaq binanın birinci mərtəbəsində 278 nəfərlik zal, dekorasiya və hazırlıq otaqları, ikinci mərtəbədə müdir, mühasib, mədəniyyət işçiləri, bədii rəhbər, metodist və məşq üçün otaqlar nəzərdə tutulub. Binanın zirzəmi hissəsində isə qazanxana, elektrik otağı və bufet yerləşəcəkdir.

Hazırda tikintidə 30 nəfər çalışır.

* * *

Muxtar respublikanın şəhər, rayon, qəsəbə və kəndlərində yeni obyektlərin inşa edilməsi əhalinin rifahının yaxşılaşdırılmasına və sosial problemlərinin həllinə xidmət edir. Bütün bölgələrdə olduğu kimi, Sədərək rayonunda da inşaat sektoru sahəsində müxtəlif layihələr həyata keçirilir. Rayonda aparılan irimiqyaslı abadlıq-quruculuq işləri ayrı-ayrı sahələri əhatə edir. Yaşayış məntəqələrində inşa olunan müasir obyektlər sərhəd bölgəsinin sakinlərinin firavan yaşayışını təmin etməklə bərabər, həm də rayonun simasını xeyli dərəcədə dəyişdirir.

Quruculuq ərməğanı rayonun Heydərabad qəsəbəsini də öz ağuşuna alıb. Son illər qəsəbədə görülən abadlıq işləri bu yaşayış məntəqəsinin görkəminə yeni çalarlar qatır. Qəsəbə sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində də bir sıra işlər görülür. Nəticədə, inşa olunan yaşayış binalarının sayı xeyli artıb. Bu tədbirlərin davamı olaraq bu ilin əvvəllərindən Heydərabad qəsəbəsində zirzəmi ilə birlikdə 7 mərtəbəli, 48 mənzilli yaşayış binasının tikintisinə başlanılıb. İnşaat işlərini "ARTAY" şirkətinin kollektivi həyata keçirir.



Artıq binanın birinci mərtəbəsində ara hörgülər başa çatdırılıb. İkinci və üçüncü mərtəbələrdə hörgü işləri davam etdirilir. Dördüncü mərtəbədə sütun bərkitmə işləri aparılır. Divarlar hörülür, tavan hissəyə panellərin döşənməsi üçün hazırlıq işləri görülür. Layihə əsasında burada 2 və 3 otaqlı mənzillər olacaq.

Yüksək zövqlə, peşəkarlıqla və müasir memarlıq elementlərindən istifadə edilməklə inşası aparılan obyektdə kifayət qədər işçi qüvvəsi çalışır. Tikintidə, əsasən, yerli inşaat materiallarından istifadə edilir, keyfiyyət amilinə xüsusi diqqət yetirilir.

Yeni binanın inşası gənc ailələrin mənzil problemlərinin həllinə öz töhfəsini verəcəkdir.

***Əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi muxtar respublikada həyata keçirilən sosial siyasətin tərkib hissəsidir. Əmək ehtiyatlarından daha səmərəli istifadə edərək əhalinin məşğulluğunun təmin olunması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı xarakter almasını təmin edib.***

## Əhalinin məşğulluğu günün tələbidir

Proqramda işaxtaran vətəndaşların məşğulluq səviyyəsinin yüksəldilməsi və sosial müdafiəsinin gücləndirilməsi zəruri tələb kimi qarşıya qoyulub. Bu gün dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi diqqət mərkəzində saxlanılır. Əhalinin məşğulluğunun təmin edilməsi məqsədilə muxtar respublikada əmək bazarının tələbləri nəzərə alınmaqla, əmək yarmarkaları təşkil edilir. Məşğulluq xidməti orqanları tərəfindən muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlardan boş iş yerləri haqqında məlumatlar toplanılır, həmin yerlər əmək yarmarkalarında işaxtaranlara təqdim olunur. Nəticədə, işaxtaranlar öz peşə və ixtisaslarına uyğun işlə təmin edilirlər. Bu da onlar tərəfindən yüksək dəyərləndirilir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, 2017-ci ilin 11 ayı ərzində işaxtaranların məşğulluğunun təmin olunması, peşə hazırlığı ilə bağlı bir sıra tədbirlər həyata keçirilib. Bəhs olunan dövrdə, ümumilikdə, muxtar respublika üzrə məşğulluq xidməti orqanları tərəfindən 2693 nəfər münasib işlə təmin olunub. Ötən ilin müvafiq dövrü ilə müqayisə etdikdə bu göstərici 86 nəfər çoxdur. Kənd xidməti mərkəzlərində isə ümumilikdə, 67 nəfər müvafiq işlə təmin edilib. Həmin dövrdə iş ilə təmin olunanlardan 990 nəfəri gənc, 8 nəfəri hərbi xidmətdən təxris olunan, 91 nəfəri sağlamlıq imkanları məhdud şəxs, 1 nəfəri cəzaçəkmə müəssisəsindən azad edilən, 89 nəfəri isə aztəminatlı ailələrin əmək qabiliyyətli üzvləridir.

İl ərzində keçirilmiş əmək yarmarkalarında, ümumilikdə, 832 nəfər peşə və ixtisasına uyğun iş ilə təmin olunub. Bu göstəricini 2016-cı ilin 11 ayı ilə müqayisə etsək, bu rəqəm 183 nəfər çoxdur. Bu gün əmək bazarının tələbi istehsal və xidmət sahələrini orta təhsil almış işçi deyil, müəyyən peşəyə yiyələnmiş mütəxəssisdir. Bu məsələdə muxtar respublikanın müxtəlif bölgələrində fəaliyyəti təmin edilmiş peşə məktəbləri mühüm rola malikdir. Hər il Naxçıvan, Ordubad və Şərur şəhərlərində fəaliyyət göstərən belə təhsil müəssisələrini yüzlərlə gənc bitirir, onlar işlə təmin olunur.

Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq cari ilin 11 ayı ərzində müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunub. Müvafiq dövr ərzində 396 nəfər, o cümlədən 36 nəfər Penitensiar Xidmətin Cəzaçəkmə Müəssisəsində kurslara cəlb edilib. Peşə kurslarına cəlb olunan vətəndaşlardan 134 nəfəri gənc, 18 nəfəri sağlamlıq imkanları məhdud şəxs, 1 nəfəri isə hərbi xidmətdən təxris olunandır.

Bununla yanaşı, muxtar respublikamızda aztəminatlı ailələrin də özünüməşğulluğu diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən muxtar respublikanın rayonlarından olan 38 aztəminatlı ailəyə fərdi təsərrüfatlarını qurmaq üçün müvafiq köməklik göstərilib.

Həmçinin məhdud fiziki imkanlı 19 qadın tərəfindən toxunan 2807 cüt yun corab və 214 ədəd yun şərf hərbi hissələrə təhvil verilib. "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosialyönümlü layihə çərçivəsində isə 7 nəfər xalçatoxuyan evdar qadın cəlb edilib.

Göründüyü kimi, 2017-ci ili muxtar respublikada əhalinin məşğulluğunun təmin edilməsi baxımından uğurlu illərdən biri saymaq olar. Bu, muxtar respublikamızda insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin davamlı xarakter almasının göstəricisidir.

**Xəbərlər şöbəsi**



# Naxçıvan sənayesi inkişaf yolundadır

***Muxtar respublikamızın hərtərəfli iqtisadi inkişafında sənaye sahələrinin genişləndirilməsinin mühüm rolu vardır. Sənaye məhsulunun həcminə görə ölkəmizin iqtisadi rayonları arasında öncül yerlərdən birini tutan Naxçıvanda bu sahə yüksəkgəlirliyi ilə seçilir. Məhz buna görə də regionun gələcək inkişafı üçün sənaye istehsalının dayanıqlı və yüksək artım tempinin təmin edilməsi, strukturunun təkmilləşdirilməsi və səmərəliliyinin artırılması dövlət siyasətinin əsas məqsədlərindəndir.***

Ölkəmizdə iqtisadiyyatın çoxşaxəliliyinin təmin olunması və qeyri-neft sektorunun inkişafı istiqamətində müəyyən edilmiş strategiyaya uyğun olaraq Naxçıvan Muxtar Respublikasında həm yerli xammala əsaslanan, həm də yüksək texnologiya bazalı sənaye müəssisələrinin yaradılması işi uğurla davam etdirilir.



Naxçıvanda güclü sənaye potensialının yaradılması asan başa gəlməyib. Ötən əsrin 90-cı illərində keçmiş ittifaqın dağılması ilə müttəfiq respublikalar arasında mövcud olan iqtisadi əlaqələrin kəsilməsi, Ermənistanın müstəqil ölkəmizə qarşı təcavüzü və bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq qarşıya çıxan problemlər Naxçıvana da öz mənfi təsirini göstərdi. Muxtar respublikanın blokada şəraitində olması sosial-iqtisadi inkişafa daha böyük zərbə vurmaqla sənaye məhsulunun həcminin azalması, onun sahə strukturunda geriləmənin baş verməsi ilə nəticələndi. Sonrakı illərdə sənaye istehsalının böhrandan çıxarılması üçün mühüm tədbirlər görüldü, qəbul olunmuş dövlət proqramlarının reallaşdırılması sənayenin inkişafına güclü təkan verdi. Məhz buna görə 2016-cı ildə 2000-ci ilə nisbətən hasilat sənayesində 8,2 dəfə, emal sənayesində 79,7 dəfə, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi sahəsində 18 dəfə artım əldə olundu.



Hazırda muxtar respublikada sənayenin sahə strukturunda əsas yerə sahib olan yeyinti sənayesi içki və tütün də daxil olmaqla, bir sıra qida məhsullarının istehsalını, yüngül sənaye isə toxuculuq, tikiş, dəri, dəri məmulatları və ayaqqabı istehsalını əhatə edir. Sənayedə yerli kənd təsərrüfatı məhsullarının emalı və faydalı qazıntı hasilatı da xüsusi yer tutur.

Tarixə nəzər salarkən görürük ki, Naxçıvan Muxtar Respublikası aqrar iqtisadiyyatdan sənaye istehsalına qədər uzun bir inkişaf yolu keçib və 2008-ci ildən etibarən ilk dəfə olaraq sənaye məhsulunun istehsalı kənd təsərrüfatı məhsulunun istehsalını geridə qoyub. Bunun səbəblərindən biri sənayenin baza şərti olan xammal baxımından muxtar respublikanın böyük üstünlüklərə malik olmasıdır. Naxçıvanın müasir iqtisadi potensialı və sahib olduğu həm kənd təsərrüfatı, həm də mədən xammalları onun öz imkanları hesabına təkcə iqtisadi deyil, həm də sosial aspektlərlə bağlı olan sənayeləşmənin daha da sürətlənməsinə imkan verir. Belə ki, təbii sərvətlərin məhsula çevrilməsi rayonun iqtisadi inkişafında əsas məsələlərdən biridir. Çünki ucuz qiymətə istehsal etdiyimiz hər hansı kənd təsərrüfatı məhsulunu xaricə ucuz qiymətə satıb, əvəzinə baha qiymətə emal olunmuş hazır məhsulu almaq iqtisadiyyata həmin fərq qədər ziyan vurur. Lakin həmin məhsulu özümüz istehsal etsək, əhalini ucuz məhsulla təmin edib ümumi daxili məhsulu artırsaq, iqtisadiyyata bir o qədər xeyir vermiş oluruq. Naxçıvanda bu, uğurla həyata keçirilir.

Regionda emal müəssisələrinin sayı artdıqca istehsal artır, daxili bazar formalaşır, rəqabət mühiti yaranır, əhalinin məşğulluq səviyyəsi yaxşılaşır, alıcılıq qabiliyyəti yüksəlir və nəticədə, sosial-iqtisadi inkişaf davamlı xarakter alır. Beləcə, dövlətin iqtisadi imkanlarının artması yeni-yeni layihələrin həyata keçirilməsinə şərait yaradır.

Sənayenin inkişafı üçün lazım olan əsas amillərdən biri enerjidir. Təsadüfi deyil ki, enerji istehsalının artması sənayenin inkişafının əsas göstəricisidir. Ötən əsrin 90-cı illərində elektrik enerjisi qıtlığından çox böyük çətinliklər yaşayan muxtar respublika bu gün özünü elektrik enerjisi ilə tam təmin edir.

Muxtar respublikada xammal mənbələri ilə sənaye müəssisələrinin bir-birinə yaxın olması məhsuldarlıq baxımından da əhəmiyyətlidir. İstehsal olunan malların daxili və xarici bazara nizamlı şəkildə çıxarılmasında nəqliyyat sisteminin böyük rolu var. Ümumiyyətlə, sənayenin inkişafında ən sərfəli nəqliyyat sistemi dəniz və dəmir yolu hesab olunur. Bu baxımdan Bakı-Tbilisi-Qars dəmir yolunun gələcəkdə Naxçıvana qədər uzadılması nəqliyyat blokadasının aradan qaldırılması və istehsal olunan məhsulların dünya bazarına çıxarılması üçün əlverişli bir layihə hesab edilir.

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində 28 faizlik paya malik olan sənayenin strukturunun təkmilləşdirilməsi, emal müəssisələrinin inkişafı istiqamətində görülən tədbirlər bu sahənin tərəqqisinə səbəb olub. Kənd təsərrüfatı, onun xammalına əsaslanan emal müəssisələrinin yaradılması, tikinti materialları istehsalının inkişafında baş verən müsbət dəyişikliklər muxtar respublikanın iqtisadi potensialının möhkəmlənməsinə təsir göstərib. Təbii sərvətlərin və əmək resurslarının səfərbər edilməsi, sənaye müəssisələrinin bərpa olunması və yenidən qurulması, müəssisələrin dünya standartlarına uyğun texnologiyalarla təmin olunması, güzəştli kreditlərin verilməsi, yerli və xarici bazarlara çıxış imkanlarının sadələşdirilməsi artımla müşahidə olunub və bununla da sənaye ümumi daxili məhsulun sahə strukturunda ilk yerə yüksəlib.

Təkcə 2016-cı ildə 942 milyon manatlıq sənaye məhsulu istehsal olunub ki, bu da 1995-ci ilə nisbətən 103 dəfə çoxdur. 2017-ci ilin yanvar-noyabr aylarında 879 milyon 800 min manat dəyərində məhsul istehsal edilib. Bu da 2016-cı ilin müvafiq dövründəki göstəricini 1,2 faiz üstələyib. Regionun tikinti materiallarının böyük miqdarda ehtiyatına malik olması burada tikinti məhsullarına olan tələbatın tamamilə yerli istehsal hesabına təmin edilməsinə imkan yaradır.

*Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının təməlində dövlətin sosialyönümlü iqtisadi siyasəti, o cümlədən hər bir vətəndaşın maddi rifahının artırılması dayanır. Muxtar respublikanın iqtisadi təhlükəsizliyinin təminatında regionda iqtisadiyyatın dövlət tənzimləmə mexanizmlərinin liberallaşdırılması, azad rəqabət, sahibkarlıq və investisiya mühitinin daha da yaxşılaşdırılması üçün aparılmış kompleks işlər mühüm rol oynayır. Bütün bunlar sənayenin də perspektiv inkişafı üçün geniş yollar açır.*

**Mehriban İMANOVA**
***iqtisad üzrə fəlsəfə doktoru***

# Davamlı enerji təminatı iqtisadiyyatın hərəkətverici qüvvəsidir



Elektrik enerjisi hər hansı bir ölkənin tərəqqisində, cəmiyyətin iqtisadi-mədəni inkişafında əsas şərtlərdən biridir. Naxçıvan Muxtar Respublikasında da bu sahənin inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilir, müasir elektrik stansiyaları yaradılır, maddi-texniki baza gücləndirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikanın enerji təhlükəsizliyini xarakterizə edərkən deyib: ***"Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir".***

...Hər il qış fəsli gələndə yaxın keçmişdə yaşadığımız günləri xatırlayıram: 1991-ci ildən 1992-ci ilə keçən qış çox sərt gəlmişdi. Elektrik enerjisinə və təbii qaza möhtac qalmışdıq. Hər tərəfdən blokadaya alınmış muxtar respublikada həyat iflic vəziyyətinə düşmüşdü. Bəzən 40 dərəcəyədək şaxta olurdu. Əksər yaşayış məntəqələrimizə gedən yollarda qar dizə qədər idi. Vaxtilə yol boyunca əkilən ağaclar da çox seyrək görünürdü. Çünki ağacların əksəriyyəti kəsilərək yanacaq kimi istifadə olunurdu. Bir sözlə, iqtisadi tənəzzül, qırılmış ümidlər, mükəddər baxışlar, uzun-uzadı çörək növbələri və sabaha inamsızlıq hissi bizi sınağa çəkirdi. Həmin günlərdə ciddi imtahan qarşısında qalmışdıq.

Qədim zamanlardan bəri aqil insan Tanrıdan üç şey diləyir: güc, səbir, bir də müdriklik. Gücü ona görə istəyir ki, dünyada dəyişə biləcəklərini dəyişməyə gücü çatsın. Səbri ona görə istəyir ki, dəyişməyə gücü çatmayacaq şeylərə dözə bilsin. Müdrikliyi ona görə istəyir ki, birincilərlə ikinciləri dəyişik salmasın, onları bir-birindən ayıra, seçə bilsin. İnsanların arzularına, duyğularına, ümidlərinə, gələcək xoşbəxt həyatına işıq sala bilsin. Ulu Tanrı xalqımızın bu duasını eşidib, zamanında ona güc və səbir verməklə yanaşı, özünün qoruyub hifz etdiyi müdrik rəhbəri – ümummilli liderimiz Heydər Əliyevi insanların köməyinə göndərib.

Yer üzünün bir həqiqəti var: işıq qarşısında qaranlıq durmaz. Çox keçmədi ki, ulu öndərin qəbul etdiyi qərarlar, İran və Türkiyə ilə apardığı danışıqlar muxtar respublika sakinlərinin narahatlığına son qoydu. Həmin ölkələrdən çəkilən elektrik xətləri öləziyən ümidlərə, insanların sabaha olan inamına nur çilədi.

"Çətin günün ömrü az olar", – deyib atalar. Bu çətin günlər naxçıvanlıların iradəsini qıra bilmədi. Naxçıvan bu ağır və çətin imtahandan üzüağ və alnıaçıq çıxdı. İradə və dözüm, bir də muxtar respublika sakinlərinin öz rəhbərinə yüksək inam hissi hər şeyə qalib gəldi. Regionun başı üstündə yanan Heydər Əliyev günəşi buradakı qaranlıqları yox etməyə başladı.

Ulu öndərimizin davamçıları Onun yolunu uğurla davam etdirdilər. Muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində bir sıra layihələr müvəffəqiyyətlə həyata keçirildi. 2005-ci ilin sonundan başlayaraq təbii qazın nəqlinin bərpası bu məsələdə mühüm rol oynadı. Həmin gündən bu günümüzədək bütün təsərrüfat subyektləri fasiləsiz təbii qazla təmin olunur. Sevindirici günlərdən biri də 2006-cı ilin dekabr ayına təsadüf etdi. Həmin gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 87 meqavat gücündə olan Naxçıvan Modul Elektrik Stansiyası işə salındı. Hər qaranlıq gecənin bir işıqlı gündüzü var, – deyən ata-babalarımızın bu müdrik kəlamı həqiqətə çevrildi. Bu mühüm hadisədən az sonra evlərimiz, küçələrimiz işığa qərq oldu. Qırılmış ümidlər, tükənmiş arzular, sabaha inam hissi yenidən dirçəlməyə başladı. Çətin günlərin ömrünə son qoyuldu. İdarə, müəssisə və təşkilatlarımızda çalışan işçilər üçün də lazımi iş şəraiti yaradıldı. Bir sözlə, iqtisadi və siyasi mənqənədə sıxılan muxtar respublikada həyat canlandı.

İllər bir-birini əvəz etdikcə elektroenergetika sahəsində genişmiqyaslı tədbirlər görüldü, yeni istehsal sahələri yaradıldı, infrastruktur yeniləndi. Bu dövr ərzində 22 meqavat gücündə Biləv, Heydər Əliyev Su Anbarı üzərində 4,5 meqavat gücündə, 20,5 meqavat gücündə "Arpaçay-1", 1,4 meqavat gücündə "Arpaçay-2" Su Elektrik stansiyaları, 60 meqavat gücündə Qaz-Turbin və 22 meqavat gücündə Naxçıvan Günəş Elektrik stansiyaları həyata vəsiqə aldı. Hazırda Ordubad Su Elektrik Stansiyasının inşası davam etdirilir. Həyata keçirilən bu layihələr yeni istehsal sahələrinin yaradılmasına, iqtisadiyyatımızın güclənməsinə, aqrar sahənin inkişafına, istifadəsiz qalmış torpaqların suvarılmasına töhfələrini verir. Muxtar respublikamızın ayrı-ayrı bölgələrində uzun illər boyu əkilməyən torpaq sahələrini əkin dövriyyəsinə qatmaq, onun suvarılmasını təmin etmək üçün Sədərək rayonunda "Şir arxı" üzərində, Culfa rayonunun Yaycı kəndində "Yaycı-1", "Yaycı-2", Gülüstan və sair yaşayış məntəqələrimizdə nasos stansiyaları qurulub. Hazırda bu nasos stansiyalarının gücü ilə min hektarlarla boş torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib, onun suvarılması təmin olunub. Elektrik enerjisi ilə təminat olmasaydı, bütün bunlar da olmayacaqdı.

Muxtar respublikamızda enerji təhlükəsizliyi ilə bağlı həyata keçirilən tədbirləri yüksək qiymətləndirən ölkə başçısı cənab İlham Əliyev deyib: ***"Elektrik enerjisi ilə bağlı problem yoxdur. Hesab edirəm ki, gün gələcək ki, Naxçıvan bütün tələbatını bərpa olunan enerji növləri hesabına təmin edəcək".***

Bu, artıq reallığa çevrilib. Əgər 1995-ci ildə muxtar respublikada bir elektrik enerjisi istehsal edən müəssisə fəaliyyət göstərirdisə, bu gün onların sayı 8-ə çatdırılıb, elektrik enerjisi istehsalı 1995-ci illə müqayisədə 4 dəfə artaraq 400 milyon kilovat-saatı ötüb.

Belə bir müdrik kəlam var. Deyirlər, bəşəriyyət hər cür çətinliyə, hətta aclığa, susuzluğa, yoxsulluğa da dözüb yaşaya bilər, ancaq işıqsız yaşaya bilməz. Düşünürəm ki, bu fikir təkcə işığı, dolayısıyla elektrik enerjisini deyil, həm də işıqlı ideyaları, əməlləri də ifadə edir. Bu gün muxtar respublikamızın hər bir sakini bu qədim diyarda aparılan quruculuğun, sosial-iqtisadi inkişafın və enerji təhlükəsizliyinin real nəticələrini öz gündəlik həyatında hiss edir. Yaşadığımız qış fəsli heç kəsin əlini işdən soyutmur, əksinə insanları bu fəslin gözəlliklərindən zövq almağa çağırır. Çünki bu gün enerji ilə təminatda heç bir problem yoxdur və hər kəs isti, rahat həyat şəraiti ilə təmin olunub.

**Rövşən HÜSEYNOV**

***Ötən əsrin 70-ci illərindən başlayaraq, muxtar diyarımızda mədəniyyət sahəsi də öz inkişaf dövrünü yaşayıb. Sənətə, sənət adamlarına böyük qayğı ilə yanaşan ümummilli liderimiz Heydər Əliyevin səyi nəticəsində mədəniyyətin bir çox sahələrində olduğu kimi, rəssamlıq sahəsində də nailiyyətlər, uğurlar qazanılıb. Bunu 1971-ci ildə ulu öndərimiz Heydər Əliyevin himayəsi ilə yaradılan Naxçıvan Rəssamlar Təşkilatının timsalında da görmək olar. Ötən əsrin 90-cı illərində baş verən məlum proseslər nəticəsində təşkilat öz fəaliyyətini tamamilə dayandırıb. Ümummilli liderimiz Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra bütün sahələr kimi rəssamlıq da inkişaf yoluna qədəm qoyub, 2000-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi yaradılıb.***




# Naxçıvanlı rəssamlar ili uğurla başa vururlar

Birliyin fəaliyyəti ilə tanış olmaq üçün adıçəkilən ünvana üz tutduq. Bizi maraqlandıran sualları Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva cavablandırdı. Bildirdi ki, mədəniyyətimizin geniş sahələrindən biri də rəssamlıq sənətidir. Muxtar respublikamızda Heydər Əliyev siyasi xəttinin uğurla davam etdirilməsi nəticəsində bu gün qədim diyarımız yeni inkişaf mərhələsinə qədəm qoyub. Belə ki, muxtar respublikada ictimai həyatın bütün sahələrinin yeniləşdirilməsi yaradıcı təşkilatları, o cümlədən Rəssamlar Birliyini də əhatə edib. 2013-cü ildə Naxçıvan rəssamlarının istifadəsinə verilən müasir bina, hər cür şəraiti olan emalatxanalar və Bəhruz Kəngərli adına Sərgi Salonu bu gün rəssamlıq sahəsinə göstərilən qayğının davamıdır. Rəssamların fəaliyyətinə dövlət tərəfindən verilən yüksək qiymət onları yeni yaradıcılıq zirvələri fəth etməyə, ölkəmizin mədəni inkişafında daha fəal rol oynamağa ruhlandırır. Onların bir çoxuna Azərbaycan və muxtar respublikanın fəxri adlarının verilməsi, yaradıcılıq imkanlarının genişləndirilməsi üçün əlverişli şəraitin yaradılması bu diqqət və qayğının bariz təzahürüdür.



Ülviyyə Həmzəyeva onu da diqqətə çatdırdı ki, Rəssamlar Birliyinin qarşısında duran əsas vəzifələrdən biri Naxçıvan rəssamlıq ənənələrini davam və inkişaf etdirəcək istedadlı gənclərin üzə çıxarılmasından ibarətdir. Bunun üçün Rəssamlar Birliyi tərəfindən ustad dərslərin keçilməsi təşkil edilir. Həmçinin burada yaradılan emalatxanalarda praktik məşğələlər təşkil olunur. Bu da gənclərə bacarıqlarını inkişaf etdirməyə imkan verir. Ülviyyə xanımın sözlərinə görə, xarici ölkələrin rəssamları və yaradıcılıq birlikləri ilə mübadilələr aparılır. Əvvəllər təkcə Türkiyə Cümhuriyyətində yaşayıb-yaradan rəssamlarla birlikdə sərgilər təşkil edilirdisə, hazırda bu istiqamətdə işlər daha da genişləndirilib. 2015-ci ildən bəri təşkil edilən bir çox Beynəlxalq Rəsm festivalları gənc rəssamlarımızın tanınmasına səbəb olub. Eyni zamanda ölkə səviyyəsində – paytaxt Bakıda təşkil olunan sərgilərdə, müsabiqələrdə rəssamlarımızın, xüsusən gənclərin iştirakına diqqət yetirilir.

Söhbətimizi Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda davam etdiririk. Bu geniş və mükəmməl işıqlandırma sistemi ilə təchiz olunmuş salonda nümayiş etdirilən 200-ə yaxın əsər haqqında bizə məlumat verən birliyin sədri sərgilənən bütün əsərlərin məhz naxçıvanlı rəssamların əl işləri olduğunu deyir: – Rəssamların yaradıcılıq məhsulları ilə muxtar respublika sakinlərini tanış etmək, bu sahədə çalışan sənət adamlarının tarixi günlər, bayramlar, əlamətdar hadisələrə həsr olunmuş əsərlərini təbliğ etmək məqsədilə sərgilər təşkil edilir. 20 Yanvar faciəsinə həsr olunmuş "Tariximizin qəhrəmanlıq səhifəsi", Xocalı soyqırımına həsr olunmuş "Qan yaddaşımız Xocalı", 31 mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunan mövzularda, eləcə də bütün incəsənət adamlarının yaradıcılığından əsas xətt kimi keçən ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən əsərlərdən ibarət sərgilər rəsmsevərlər tərəfindən maraqla qarşılanır. İlboyu sərgilər bu istiqamətdə təşkil edilib. "Mənim yaradıcılığım", "Naxçıvan – tarixi abidələr diyarı", "Hünərli əllər" və digər sərgilərdə yüzlərlə rəsm əsəri tamaşaçılara təqdim olunub, maraqla qarşılanıb. Gənc rəssamlar üçün ustad dərslərinin keçilməsi də böyük əhəmiyyət daşıdığından bu məsələ diqqətdə saxlanılıb.

Ötən günlərdə muxtar respublikanın yaradıcılıq mərkəzlərinin rəsm dərnəklərində ustad dərslərində iştirak etmiş şagirdlərin çəkdikləri rəsmlərdən ibarət təşkil edilmiş sərgi də yaddaqalan olub. Sərgidə 40 şagirdin 139 rəsm əsəri nümayiş etdirilib. Bu sırada rəsm müsabiqələrini də vurğulamaq yerinə düşər. Onlardan birini xüsusilə qeyd etmək istəyirəm. Bu, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvanın 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı olması ilə əlaqədar loqotipin hazırlanması ilə bağlı keçirilən müsabiqədir. Loqotipin qalibi Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Tapdıq Həmzəyev olub. Naxçıvan şəhərində Bəhruz Kəngərli adına Rəssamlar Parkının yaradılması və rəssamın heykəlinin ucaldılması Bəhruz Kəngərli irsinə göstərilən ehtiramın, muxtar respublikada rəssamlıq sənətinə verilən yüksək dəyərin göstəricisidir.

Naxçıvanda yaşayıb-yaradan rəssamlar bu parkın gələcəkdə muxtar respublika tarixini və mədəniyyətini təbliğ edən mühüm bir yaradıcılıq məkanına çevrilməsi üçün bütün güclərini səfərbər ediblər.

Rəssamlar yeddi rəngin və fırçanın gücü ilə bu günümüzün tarixini yaradırlar. Onların çəkdikləri hər bir əsər xalqımızın mədəni sərvətidir. Rəsm əsərləri, eyni zamanda ölkənin tanıdılmasında, xalqın mədəniyyətinin təbliğ edilməsində mühüm əhəmiyyətə malikdir.

*Bəli, bu gün muxtar respublikada sənətə və sənətkara göstərilən diqqət və qayğı sayəsində rəssamlar Bəhruz Kəngərli ilə başlanan yolu davam etdirmək üçün böyük səy göstərir, əllərindən gələni əsirgəmirlər. Başıqarlı dağları, bolsulu çayları, sərin bulaqları, güllü-çiçəkli çəmənləri, təbii sərvətləri ilə zəngin olan doğma Naxçıvanın füsunkar mənzərələrini, əsrarəngiz gözəlliklərini, bənzərsiz təbiətini tablolara köçürən rəssamlarımız, inanırıq ki, bundan sonra da böyük uğurlara imza atacaqlar.*

**✍ Gülcamal TAHİROVA**

# Boyaqçılıq Naxçıvanın qədim sənət sahələrindən olub

***Naxçıvanın tarixi keçmişindən bəhs edən tədqiqatçılar haqlı olaraq hər zaman bu tarixin zəngin mədəniyyət üzərində formalaşdığını bildirirlər. Bu qədim Azərbaycan diyarının təbii və coğrafi mühiti, insanlarının zəhmətkeşliyi, yeniliyə meyilli olması, həqiqətən, regionun mədəni zənginliyinə şərait yaratmış, burada xalq yaradıcılığının inkişafına geniş imkanlar açmışdır. Xüsusilə orta əsrlər Naxçıvanında bir çox sənət sahələrinin geniş yayılması diyarımızın mühüm ticarət və sənətkarlıq mərkəzi kimi tanınmasına gətirib çıxarmışdır. Mənbələrdən bəlli olur ki, tarixən burada gön-dəri istehsalının, toxuculuğun, o cümlədən xalçaçılığın inkişafı, eyni zamanda digər sənətkarlıq sahələrinin inkişafına da rəvac vermişdir. Belə sənətkarlıq sahələrindən biri də boyaqçılıqdır.***

Xanlıqlar dövründə Azərbaycanda sənətkarlığın vəziyyətini araşdırmış tədqiqatçılar haqlı olaraq göstərirlər ki, boyaqçılıq sənəti, əslində, toxuculuq və gön-dəri məmulatı istehsalının, bir növ, yekun mərhələsi olub, hazır məhsulların bədii zövqlə tərtib edilməsinə xidmət edirdi. Orta əsrlər dövründə ölkəmizdə olmuş bir çox əcnəbi səyyahlar da Azərbaycanda boyaqçılığın ən geniş yayılmış sənət sahələrindən biri olduğunu bildirirdilər. Əməkdar incəsənət xadimi, tarix üzrə fəlsəfə doktoru, professor Vidadi Muradovun "Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri)" monoqrafiyasında isə qədim diyarda bu sahənin inkişafı ilə bağlı maraqlı məqamlara toxunulur, boyaqçılığın bir sənət sahəsi kimi yayıldığı qeyd olunur. Elə bu yazıda da tədqiqatçının adıçəkilən monoqrafiyasında boyaqçılıqla bağlı apardığı araşdırmalardan bəzi maraqlı məqamları oxucularımızla bölüşmək istərdik.

Arxeoloji tədqiqatlara əsaslanan professorun qeydlərinə görə, Naxçıvan diyarında yaşayan əhali hələ ibtidai icma quruluşu dövründə boyaqçılıqla məşğul olmuşlar. Qədim Kültəpədə aparılan qazıntılar zamanı eradan əvvəl IV-III minilliklərə aid olan təbəqədən toxuculuq alətləri ilə yanaşı, boyaq xassəli bitki köklərinin döyülməsi üçün istifadə edilən bir neçə həvəngdəstə də tapılmışdır. Onlardan birinin üzərində hətta qırmızı rəngin qalığı da aşkar edilmişdir. Tədqiqatçıya görə, qədim yunan tarixçisi Herodotun Cənubi Qafqazda yaşayan əhalinin boyaqçılığın sirlərinə bələd olmaları haqqındakı fikirlərini Naxçıvana da aid etmək olar. Orta əsrlər dövründə Naxçıvan diyarında parça toxuculuğu, xalçaçılıq və gön-dəri məmulatının istehsalının artması boyaqçılığın inkişaf etdiyini göstərir. X əsrdə və ondan əvvəlki əsrlərdə Naxçıvan şəhərində toxunan "zili" tipli irihəcmli xalçaların bədii cəhətdən tərtibatında boyaqçılığın da böyük rolu olmuşdur. Türk səyyahı Övliya Çələbinin verdiyi məlumatlardan da aydın olur ki, həmin dövrdə Naxçıvan şəhərinin əhalisi, xüsusilə qadınlar yaşıl, narıncı və sarı rənglərə boyanmış tumac dəridən tikilən çəkmələr və "papış" adlandırılan ayaqqabılar geyinirdilər.

XVIII-XX əsrin əvvəllərində isə boyaqçılıq sənəti özünün yüksək inkişaf səviyyəsinə çatmışdır. Vidadi Muradov yazır ki, tədqiq olunan dövrdə bölgədə boyaqçılıq sənəti haqqında ilk statistik məlumata "Naxçıvan sancağının müfəssəl dəftəri"ndə rast gəlinir. Həmin mənbəyə görə, 1727-ci ildə Naxçıvan şəhərində illik gəliri 1200 ağça olan boyaqxana fəaliyyət göstərirdi. Naxçıvan sancağının Qışlağat nahiyəsinə tabe olan Yezdabad kəndində və Azadciran nahiyəsinə tabe olan Meqri kəndində də müstəqil fəaliyyət göstərən boyaqxanalar mövcud idi. "Naxçıvan əyalətinin statistik təsviri"ndə isə Naxçıvan dairəsində pambıq parçaların göy rəngə boyanması üzrə ixtisaslaşmış 3 boyaqxananın fəaliyyət göstərməsi haqqında məlumat verilir. Eyni zamanda XIX əsrin 30-cu illərində Ordubad dairəsində fəaliyyət göstərən 8 boyaqxanadan birinin Ordubad şəhərində, yeddisinin isə kəndlərdə yerləşməsi haqqında məlumatlara rast gəlinir. Həmin dövrdə Naxçıvan qəzasının kəndlərində ilboyu fəaliyyət göstərən 6 boyaqxana qeydə alınmışdır.

Tədqiqatçının mənbələrdən əldə etdiyi məlumatlara görə, Naxçıvanda hələ xanlıqlar dövründə boyaqçılıq sənəti xəzinənin mühüm gəlir mənbələrindən birini təşkil edirdi. Belə ki, Naxçıvan xanlığının Rusiya tərəfindən işğal edilməsindən 5 il əvvəl, daha doğrusu, 1823-cü ildə boyaqçılıqdan toplanan vergi maddəsi ayrı-ayrı şəxslərə iltizama verilmişdi. Boyaqçılıq üzrə müəyyənləşdirilmiş bu maddə Naxçıvan dairəsi üzrə 370 tümən, Ordubad dairəsi üzrə isə 503 tümən müəyyənləşdirilmişdi. Xanlığın ərazisində heç kim iltizamçıya müəyyən olunmuş vergini ödəmədən hər hansı bir məmulatı boyamaq hüququna malik deyildi. XIX əsrin sonlarına doğru isə Naxçıvan şəhərində və qəzasında boyaqxanaların həm sayında, həm də istehsal gücündə müəyyən artım müşahidə edilirdi. Mənbələrə görə, təkcə Naxçıvan şəhərində 1897-1898-ci illərdə 8 boyaqxana fəaliyyət göstərirdi ki, bu boyaqxanaların hər birində orta hesabla bir usta, bir şagirdin çalışdığı emalatxanaların illik istehsal gücü 1600-2000 rubl təşkil etmişdi. Bütün Naxçıvan qəzasında fəaliyyət göstərən emalatxanaların sayı isə əsrin sonuncu illərində 14-ə çatmışdı.

Bəs boyama prosesi necə aparılırdı? Yuxarıda adıçəkilən monoqrafiyada göstərilir ki, Naxçıvan diyarında boyaqçılıq sənəti heç də böyük şəhərlərdə və kəndlərdə daimi fəaliyyət göstərən boyaqxanalarla məhdudlaşmırdı. Xalçaçılıq sənətinin inkişaf etdiyi kəndlərdə xalçaçı qadınlar əksər hallarda özləri bu işlə məşğul olurdular. Çünki onlar boyaq



üsulları və boyaq vasitələrinin seçilməsi haqqında əsrlər boyu yaranaraq nəsildən-nəsilə keçərək təkmilləşən ən zəruri bilik və bacarıqlara sahib idilər. Payızın sonlarında başlayan boyama prosesində onlar daha çox özlərinin yay mövsümündə tədarük etdikləri bitki mənşəli boyaq vasitələrindən məhlul hazırlayırdılar. Məhlulun hazırlanması və iplərin boyanması mis qazanlarda həyata keçirilirdi. Eyni zamanda toxuculuq məhsullarının boyanması ağır zəhmət, yüksək bilik və bacarıq tələb edən üç mərhələyə – boyamağa hazırlıq, boyama və boyağın möhkəmləndirilməsi mərhələlərinə bölünürdü. Bunu da qeyd etmək lazımdır ki, boyama üçün zəruri olan boyaq bitkiləri və maddələri ilə yanaşı, məmulatın boyanmağa hazırlanması və boyağın möhkəmləndirilməsi üçün əlavə materiallardan da istifadə edilirdi. Məsələn, yun ipin boyama prosesinə hazırlanmasında – aşkarlanmasında daha çox zəydən və ya zəy qarışdırılmış turş alça lavaşasından istifadə edilirdi. Prosesin gedişində ip zəy məhlulundan başqa, üç gün müddətində alça və ya zoğal lavaşasının suyunda isladılırdı. Bundan sonra kələflərin suyu süzülür, zəy və lavaşa ilə bir yerdə yenidən qaynadılırdı. Bundan sonra boyanmaq üçün yararlı hesab edilirdi.

Naxçıvanda boyaqçılıq sənətinin inkişafında heyvan və bitki mənşəli boyaq vasitələrinin bolluğu mühüm rol oynamışdır. Məsələn, boyaq mənşəli bitki növlərindən fərqli olaraq heyvan mənşəli boyaq vasitəsi kimi "qırmız" adlandırılan böcəklərdən istifadə edilirdi. Deyilənlərə görə, bu böcəklərdən boyaqçılar hətta boyaqotu kimi tanınan boyaq vasitəsindən xeyli əvvəl istifadə etmişlər.

Yeri gəlmişkən onu da qeyd edək ki, Naxçıvanda boyaqotu bitkisinin becərilməsi tarixi çox qədimlərə gedib çıxır. Belə ki, X əsrdə yaşamış ərəb coğrafiyaşünası İbn Havqəl bu bitkinin Azərbaycanın bir çox bölgələri ilə yanaşı, Araz çayı hövzəsində də yetişdirilməsi haqqında məlumat verir. Tədqiqatçı M.X. Heydərov isə göstərir ki, Səfəvilər dövründə qədim Culfadan keçən karvan yolu ilə birgünlük məsafədə yerləşən Azadabad dairəsi yalnız Şərqdə deyil, həm də bütün dünyada boyaqotu istehsalının ən böyük mərkəzinə çevrilmişdi. Azərbaycanın Rusiya tərəfindən işğalından sonra boyaqotu bitkisinin becərilməsi daha geniş vüsət almışdı. Mənbələrə görə, XIX əsrin ortalarında Azərbaycandan Rusiyaya ixrac edilən boyaqotu kökünün həcmi 140 min puda çatmışdı. Bundan əlavə, mənbələrdə Naxçıvanda boyaqçıların boyama vasitəsi kimi bir çox meyvə ağaclarının, o cümlədən alma, armud, gavalı, ərik, cəviz, tut və digər ağacların kök və qabıqlarından, eyni zamanda fərqli vasitələrdən də istifadəsi haqqında məlumatlar var.

**✍ Səbuhi HƏSƏNOV**

*Həkim məsləhəti*

## Havaların soyuması ilə əlaqədar yaranan xəstəliklərdən necə qorunaq?

***Qış fəsli soyuq havalarla yanaşı, xəstəlikləri də özü ilə bərabər gətirir. Bir sıra hallarda havaların kəskin soyuması ilə əlaqədar bədən temperaturu soyuğa uyğunlaşa bilmir. Buna görə də xroniki xəstəliklər belə vəziyyətlərdə daha da kəskinləşməyə başlayır. Soyuq hava şəraiti angina, bronxial-astma və digər xəstəliklərin, necə deyərlər, inkişafına münbit şərait yaradır. Bəzən bir çoxumuz bu mövsümdə yaranan xəstəliklərə o qədər də əhəmiyyət vermirik. Amma unutmayaq ki, qış mövsümü xəstəlikləri insanların fəaliyyətinə maneçilik törədən əsas amillər sırasında birinci yerdə qərar tutur.***

Havaların kəskin dəyişməsi immuniteti zəif olan orqanizmlər üçün daha təhlükəli hesab edilir. Ümumiyyətlə, fəsil dəyişkənliyinə hər orqanizm fərqli reaksiya verir. Əgər insan tam sağlamdırsa, ona fəsil dəyişkənliyinin hər hansı təsiri olmur. Amma sağlamlığında problem yaşanan, immun sistemi zəif olanlar tez bir zamanda buna reaksiya verirlər. Bəs soyuq qış aylarında xəstəliklərdən necə qorunmaq olar?

Bu barədə həmsöhbət olduğumuz Şərur Rayon Mərkəzi Xəstəxanasının həkimi, pediatr-neontoloq Hidayət Camalov bildirdi ki, qış aylarında sağlamlıqla bağlı problemin yaranmaması üçün öncə immun sisteminin güclü olmasına çalışmaq lazımdır. Çünki soyuq havalarda immun sistemi zəifləyir. Belə bir şəraitdə hava-damcı yolu ilə hər kəs viruslara yoluxa bilər. Hidayət Camalovun sözlərinə görə, hər bir insan xroniki xəstəlikləri barədə məlumatlı olmalıdır. Çünki bəzi xəstəlikləri olanlar qış aylarında daha ehtiyatlı davranmalıdırlar. İnsan var ki, qış aylarında isti evdən küçəyə çıxanda da öskürməyə başlayır, bəzən yuxarı tənəffüs yollarının iltihabi prosesləri sürətlənir, mədə-bağırsaq sistemi xəstəlikləri baş qaldırır.

Qış aylarında daha çox yayılan xəstəliklərdən biri də qrip xəstəliyidir. Qrip daha əvvəldən də bilinməsinə baxmayaraq, əslində, 1918-ci ildəki böyük epidemiya ilə gündəmə gəlmiş bir xəstəlikdir. "İspan qripi"ndən 1918-ci ildə, təxminən, 20 milyon insan ölüb. Sonrakı illərdə də epidemiyalar yayılıb. 1957-1985-ci illərdə ortaya çıxan 16 epidemiyanın hər birində ABŞ-da 10-40 min arasında insan vəfat edib. Müasir dövrümüzdə belə bir təhlükə olmasa da, "quş qripi", "donuz qripi" kimi virusal infeksiyalar dünya ölkələrinin iqtisadiyyatına milyonlarla dollar ziyan vurub, onlarla insanın ölümünə səbəb olub. Onu da qeyd edək ki, ötən illərdə ölkəmizdə bu xəstəliklər qeydə alınmayıb.

Qrip yüksək hərarət, əzələ, oynaq, baş, boğaz ağrıları, iştahasızlıq, gözlərdə qızartı, quru öskürək və halsızlıqla müşahidə edilən yuxarı tənəffüs yolları infeksiyasıdır. Bəzən, xüsusilə uşaqlarda ürəkbulanması, qusma və ishalla müşahidə olunur. Xəstəliyin ömrü böyüklərdə 3-5, uşaqlarda 7 gündək olur. Qripə yoluxan insan 5-7 gün ərzində sağalsa da, bəzi hallarda bu, qulaq və ağciyər infeksiyalarına yol aça bilər. Buna görə də sonradan orqanizmdə müxtəlif problemlərin yaranmasının qarşısını almaq üçün xəstəliklərdən qorunmaq vacibdir. Əgər orqanizmdə qripdən başqa digər xəstəlik varsa, bu zaman həmin xəstəliyin kəskinləşməsi baş verə bilər. Ona görə də qripə bütün "xəstəliklərin açarı" deyirlər. Həmin xəstəliyin yayılması, adətən, payızın ilk aylarında başlayır, noyabr, dekabr aylarında artır. Bəzən aprel və may aylarınadək davam edir.

Onu da vurğulayaq ki, qrip xəstəliyi bütün mövsümlərdə yayıla bilər. Amma qış aylarında bəzən geniş yayılmasının səbəbi insanların qapalı məkanlarda daha çox olmasıdır. İçəridəki havanın quru olması virusların uzun müddət yaşamasına səbəb olan amillərdəndir. Qrip xəstəliyi olan adamın hətta tutduğu qapı, telefon dəstəkləri də infeksiya mənbəyi ola bilər. Təyyarə səfərləri ilə virus bir ölkədən digərinə asanlıqla ötürülməkdədir.

Həkim onu da bildirdi ki, qripdən qorunmaq üçün insanlar mütləq A, C və E vitaminləri, minerallarla zəngin olan qidaları daim qəbul etməlidirlər. Bu baxımdan balıq, qırmızı ət, süd, qatıq, kök, düyü, şüyüd, cəfəri, brokoli, ispanaq, kök kimi qidalar A vitamini ilə, yaşıl bibər, sitrus bitkiləri, soğan, kərəviz, kivi C vitamini ilə zəngindir. Unutmayaq ki, C vitamini müqaviməti artırır, immuniteti gücləndirir və orqanizmi xəstəliklərdən qoruyur. Bitki mənşəli yağlar, yaşıl yarpaqlı tərəvəzlər, yumurta kimi qidalarda isə antioksidan xüsusiyyətlərə malik olan E vitamini var. E vitamini də immunitet sistemini gücləndirir. Turp, göbələk, sarımsaq, həmçinin balıq növləri kimi dəniz məhsullarında da müqaviməti artıran selenium var. Ət, pendir, yumurta, quru paxlalılar, kəpəkli taxıl məhsulları da orqanizmə faydalı olan sinklə zəngindir. Balanslı bəslənmə üçün bu vitaminlərlə zəngin olan qidaların nizamlı şəkildə istehlak edilməsi çox əhəmiyyətlidir.

Orqanizmin zülal, yağ, şəkər, vitamin ehtiyacı yetərincə təmin olunmazsa, bədənin müqaviməti aşağı düşər və tənəffüs orqanları virusların təsirilə zədələnə bilər. Xüsusilə qida dəyəri aşağı olan, yağlı yeməklərin (hamburger, dönər, cızbız, hazır şorbalar) həddindən artıq qəbul edilməsi qrip kimi infeksion xəstəliklərə tutulma ehtimalını artırır.

Hidayət Camalovun sözlərinə görə, xəstəliyə tutulmaq istəməyən insanlar sadə bir yolla özlərini qoruya bilərlər. Küçəyə çıxmazdan əvvəl adi sabundan kiçik bir hissə kəsib qısa müddətə buruna qoymaq faydalıdır. Çünki burun sabundan qıcıqlanır və qripə qarşı təbii dərman olan interferon ifraz etməyə başlayır.

Unutmaq olmaz ki, istənilən xəstəlik zamanı antibiotiklər ancaq həkimin göstərişi ilə qəbul edilə bilər. Yetərincə su içmək tənəffüs orqanları hüceyrələrinin virusa bulaşan damlacıqlara qarşı müqavimət göstərməsini təmin edir. Buna görə də qış fəslində də hər gün 10-12 stəkan maye qəbul edilməlidir.

Nizamlı şəkildə idman etmək də bədən müqavimətinin artırılması üçün çox əhəmiyyətlidir. Hər səhər soyuq duş, xüsusilə burun-qırtlaq hissəsində qan dövranını nizamlayır və viruslara qarşı yaxşı "müdafiə səddi" yaradır. Bu üsula vərdiş edənlər xəstəliklərdən rahatlıqla qoruna bilərlər.

Maraqlı görünsə də, qripə yoluxmamaq üçün öncə stresdən uzaq olmaq vacibdir. Çünki stress müqaviməti azaldaraq xəstəliklərə yol açan əhəmiyyətli amillərdən biridir. Qrip xəstəliyinə tutulmuş adamın əşyalarından istifadə etmək xəstəliyə yoluxmaq riskini artırır. Bu səbəbdən təmizliyə fikir vermək, şəxsi gigiyenanı qorumaq əhəmiyyətlidir. Yuxu rejiminə də diqqət etmək lazımdır. İnsan yuxusuz qalanda bədən hüceyrələri zəifləyir və onların virusla mübarizə qabiliyyəti yarıbayarı azalır.

Şərur Rayon Mərkəzi Xəstəxanasının həkiminin sözlərinə görə, qrip xəstəsinin olduğu otağın normal istilikdə qalması və tez-tez havalandırılması vacibdir. Otaqda havanın qurumasının qarşısı alınmalıdır.

Havalar soyuq olsa da, xüsusilə uşaqları açıq havadan məhrum etmək olmaz. Əksinə onlar açıq havada çox olmalıdır. Bu zaman qalın paltarları üst-üstə geyindirmək, uşağın ağzını müxtəlif şərflərlə sıx bağlamaq düzgün deyil. Açıq havada uşaq daim hərəkət etməli, müxtəlif oyunlar oynamalıdır.

Qripdən hamı qorunmalıdır. Amma elə insanlar vardır ki, onlar bu xəstəliyə yoluxmamağa, xüsusilə diqqət yetirməlidirlər. 65 yaşdan yuxarı şəxslər, astma və xroniki ağciyər, şəkər, ürək və ya böyrək xəstəlikləri olanlar, orqan nəql edilmiş, immunçatışmazlığı olan şəxslər, hamilə qadınlar, körpələr qripdən daha çox qorunmalıdırlar. Yaddan çıxarmaq lazım deyil ki, orqanizmin sağlam olması hər bir insanın öz əlindədir.

**Ramiyyə ƏKBƏROVA**

***Naxçıvan qədim tarixə, mədəniyyətə, incəsənətə malik olmaqla yanaşı, həm də rəngarəng mətbəxə sahibdir. Hələ qədim zamanlardan bəri bu ərazidə yaşayan insanlar özünəməxsus süfrə mədəniyyəti yaradıb gələcək nəsillərə ərməğan ediblər. Dad-tamı ilə seçilən qış yeməkləri də bu sıradadır.***

*Mövsümü yeməklər*

## Qış aylarında isti əriştə yeməyin öz yeri var





Mətbəx mədəniyyətimizdə qışa hazırlıqla bağlı ta qədim zamanlardan bəri maraqlı adət-ənənələr formalaşıb. Belə ki, növbəti qışa hazırlıq yaz aylarından başlayır. İlin bu fəslində bitən göyərti məhsullarından qış azuqəsi hazırlanır. Bu bitkilər xörəklərə xüsusi dad qatır. Payız aylarında isə hazırlıq işləri daha da sürətlənir. Turşular qoyulur, qovurmalar hazırlanır, əriştə və digər xəmir yeməkləri üçün bir sıra işlər görülür. Xüsusən kəndlərimizdə bu işlər dədə-baba adəti ilə həyata keçirilir. Bu yaşayış məntəqələrindən biri də adət-ənənələrimizin yaşadıldığı Nehrəm kəndidir.

Nehrəmdə payız aylarında əriştə kəsilməsi maraqlı məqamlarla yaddaqalandır. Bu kənddə qonağı olduğum Səkinə Zülfüqarova məni qonaqpərvərliklə qarşıladı. Səkinə xanım əriştə kəsilməsi ilə bağlı xatirələrindən danışaraq dedi ki, hələ kiçik yaşlarında nənəsi qış azuqəsi hazırlayar, əriştə kəsilməsi, təndirdə çörək yapılması isə uşaqlar üçün əsl toy-bayrama çevrilərdi. Onlar yaşlı qadınların ətrafına toplanaraq xəmirin yoğrulmasına, kündələnməsinə, kəsilməsinə tamaşa edərdilər: "Nənəm mənim bu işlərə çox maraq göstərdiyimi görüb əriştəni necə kəsmək haqqında danışar, bəzən oxlovu mənə uzadıb: "Bala, sən də bir kündə aç görüm, bacarırsanmı?" – deyərdi. Təbii ki, balaca olduğum üçün kündələri yaxşı aça bilməz, bəzən pərt olardım. Onda nənəm mənə ürək-dirək verər, "eybi yox, bala, böyüdükcə öyrənərsən", – deyərdi. Artıq o illərin üzərindən çox vaxt keçib, mən də nənə olmuşam, bu işi həvəslə qız nəvələrimə öyrədirəm. Ona görə ki, məni də öyrədiblər, bu, bir növ, mənəvi borcdur".

Səkinə xanım onu da dedi ki, əriştə kəsilməsi kənardan göründüyü kimi o qədər də asan başa gələn iş deyil. Azı 4 nəfər köməkçin olmalıdır. Yoxsa iş getməz, alınan məhsul da yaxşı çıxmaz. Öncə unu bir qaba ələyir, üstünə duz, yumurta və su əlavə edib qarışdırırıq. Daha sonra əlimizlə xəmir yoğururuq. Xəmiri hissələrə bölür, kündələyirik. Kündələrə un səpib oxlovla nazik yuxa yayırıq. Yuxanın üstünə un səpib oxlovla bükür, əriştə kəsirik. Kəsilmiş əriştələr həyətdə şəridlərə sərilir. Quruduqdan sonra qazanlara yığıb qışa saxlayırıq.

Əriştənin yaxşı alınmasında əsas şərtlərdən biri də onun quruduqdan sonra qovurulmasıdır. Bacarıqlı qadınlarımız əriştəni qovurarkən yanmamasına, ancaq yaxşı qızarmasına diqqət edirlər. Qovurulan əriştə uzun müddət qalır, onunla bişirilən yemək də dadlı olur. Bundan başqa, əriştəni qaz pilətəsində yanan odda yox, ocaqda qovuranda daha dadlı olur. Çünki yanan odunların ətri də xəmirə çökür.

Dağlardan yaz aylarında yığılıb hörülərək qurudulan ələyəz bitkisi də əriştə aşına xüsusi dad verir. Bu gün elə bir kənd evi olmaz ki, onun mətbəxində ələyəz bitkisi olmasın.

Əriştəni qovurma ilə bişirərkən ilk olaraq soğan qovurma ilə qızardılır, lavaşa vurulur, sonra müəyyən miqdarda qaynar su tökülür. İçərisinə lobya və ya noxud, istiot, duz, alça atılır və odun üstündə qaynadılır. Bişənə yaxın əriştə əlavə edilir. Əriştə tökülərkən yaxşı alınmasından ötrü yüngülcə qarışdırılır və xörək qatılaşana qədər zəif odda bişirilir. Küftəli əriştə aşı da bir çoxları tərəfindən bəyənilən yeməkdir. Yenə ilk olaraq soğan yağda qızardılır, lazımi qədər qaynar su tökülür, ədviyyatlar əlavə edildikdən sonra noxudu (lobyanı) bişənə yaxın əvvəlcədən hazırlanmış balaca küftələr xörəyə salınıb bir az qaynadılır, sonra isə əriştəsi vurulur.

Ətsiz əriştə də bu qayda ilə bişirilir. Əriştə aşı ətin şirəli, sümüklü hissələri ilə bir yerdə bişirildikdə də çox dadlı olur. Bunun üçün sümüklü ət qaynadılır, yağda qızardılmış soğan, sonra lobya (noxud), baş soğan, ərik, alça, istiot, duz, bişənə yaxın isə əriştə əlavə edilir.

Əriştə əl əməyinin, göz nurunun, illərin təcrübəsinin, qadın zəhmətinin, onun əllərinin hərarətinin, qayğıkeşliyinin məhsuludur. Nə qədər ki süfrələrinizi bu təamdan əskik etməmisiniz, qış fəslinin şaxta, sazağı da sizi qorxutmayacaq.

**Nail ƏSGƏROV**

## Şagirdlər arasında diaskin sınağı başa çatıb

Muxtar respublikanın ümumtəhsil məktəblərində I-XI sinif şagirdləri arasında başlanğıc və məhdud formalı vərəmin erkən aşkar edilib vaxtında müayinə və müalicəyə cəlb olunması üçün aparılan kütləvi diaskin sınağı başa çatıb.

Noyabrın 27-dən start götürən kütləvi müayinələrə 6 min 473 nəfər cəlb edilib. Diaskintestin yüksək səviyyədə həyata keçirilməsi məqsədilə rayon mərkəzi xəstəxanaları, şəhər, rayon gigiyena və epidemiologiya mərkəzləri tərəfindən ərazi prinsipi üzrə bir həkim və iki tibb bacısından ibarət xüsusi briqadalar yaradılıb.

Aparılan səhiyyə maarifi tədbirlərində bildirilib ki, vərəm gecikmiş mərhələdə qarşısı alına bilməyən xəstəlik olduğundan dünyada hər dəqiqə iki insanın həyatına son qoyur və əhalinin əmək qabiliyyətli hissəsini sıradan çıxarır.

Diaskintest yüksək həssas və spesifik preparat kimi insan orqanizminin yalnız patogen vərəm mikrobakteriyalarında olan xüsusi proteinlə tam tanış olduğunu göstərir. Mantu sınağında dəqiqlik 70 faizdirsə, diaskintestdə bu göstərici 98 faizdir. Bu testin bir fərqi də mantu sınağında rast gəlinən allergik reaksiyaların və yalançı müsbət nəticələrin olmamasıdır. Bir sözlə, diaskintest vərəmə yoluxmuş xəstələrin erkən aşkar olunması və yoluxmuş insanların müalicəsinin effektivliyini göstərən dəqiq sınaq üsuludur.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Güləşçilərimiz iki qızıl medal qazanıblar

*Balakən Olimpiya-İdman Kompleksində məktəblilər arasında sərbəst güləş üzrə XI respublika oyunları keçirilib.*



Oyunlarda Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələri də mübarizə aparıblar. Üç gün davam edən respublika oyunlarında güləşçilərimiz uğurla çıxış ediblər. Belə ki, 59 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxan Heydər Nəcəfov bütün rəqiblərini məğlub edərək respublika oyunlarının qalibi olub. Eyni uğuru 73 kiloqram çəki dərəcəsində mübarizə aparan Nurəddin Əliyev də qazanıb. O, bütün rəqiblərini üstələyərək oyunların baş mükafatını qazanıb.

Sonda hər iki idmançımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunublar.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Naxçıvan şəhəri, "İstiqlal" küçəsi, bina 123, mənzil 20-də yaşayan Kazımov Hüseyn Kazım oğlunun adına olan 8311 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktorun müavini: RAUF ƏLİYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 1045